Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

**Azərbaycan Respublikası müstəqilliyi dövründə istər regionda, istərsə də dünya miqyasında ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlarla siyasi, iqtisadi, hərbi, sosial, mədəni və digər sahələrdə ikitərəfli və çoxtərəfli əlaqələr qurmağa və beynəlxalq nüfuzunu ildən-ilə artırmağa nail olub.**

# Postmüharibə reallıqları beynəlxalq inteqrasiyada Azərbaycana hansı yeni imkanlar açdı?..



Bildiyimiz kimi, ölkəmizin milli dövlət mənafelərinə əsaslanan, Azərbaycan xalqının maraqlarına, təhlükəsiz və firavan yaşayışının təmin olunmasına xidmət edən, eləcə də daim dəyişən qlobal və regional proseslərə uyğunlaşdırılan çevik xarici siyasət strategiyası bu gün də uğurla davam etdirilir. Bu gün də ölkəmizin dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi ölkəmiz haqda etibarlı tərəfdaş imicini yaradıb. Azərbaycan uzun illər ərzində beynəlxalq aləmdə artıq çox etibarlı, ləyaqətli tərəfdaş kimi qəbul olunur. Xüsusilə son illər ərzində dünyada böhranların, müharibələrin, qeyri-sabit vəziyyətin genişləndiyi bir şəraitdə bizim nümunəmiz, əlbəttə ki, daha çox diqqət cəlb edir və bizə daha böyük rəğbətlə yanaşırlar.

Azərbaycan ikitərəfli əlaqələrin və regional tərəfdaşlığın genişləndirilməsinə böyük önəm verir İkitərəfli əlaqələrin inkişafına önəm verən Azərbaycan, ilk növbədə, qonşu dövlətlər olan Türkiyə, Rusiya, İran və Gürcüstan ilə qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığını genişləndirməkdədir. Azərbaycan həm də region dövlətləri arasındakı münasibətlərin geniş potensialından yararlanmaq məqsədilə yaradılan üçtərəfli formatların fəal iştirakçısıdır. Son illərdə Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Rusiya-İran xarici işlər nazirlərinin üçtərəfli formatda görüşləri bunun bariz sübutudur. Azərbaycanın qlobal əməkdaşlıq məkanına inteqrasiyasının və ölkəmizin beynəlxalq əhəmiyyəti və nüfuzunun ən bariz göstəricilərindən biri də regional və dünya əhəmiyyətli beynəlxalq tədbirlərdə ölkəmizin iştirak etməsidir.

**Azərbaycan təkcə Qafqaza deyil, həm də Yaxın və Orta Şərq regionuna təsir edən ciddi bir amilə çevrilib**

44 günlük müharibə nəticəsində Ermənistan silahlı qüvvələrini və oyuncaq Dağlıq Qarabağ rejiminin tör-töküntülərini əzəli torpaqlarımızdan qovmaqla müzəffər Azərbaycan Ordusu regionun gələcək inkişaf vektorunu müəyyənləşdirən yeni reallıq yaratdı. Məhz bu reallıq fonunda da Azərbaycan milli maraqlarını təmin etmək və böyük qlobal güc mərkəzlərilə münasibətlərini möhkəmləndirməklə bərabər, regional təhlükəsizlik və strateji yol-nəqliyyat kommunikasiyalarının, eləcə də sosial-iqtisadi əməkdaşlıq əlaqələrində yeni mərhələnin əsasını qoydu. Burada qlobal məsələlərlə bağlı fərqli maraqlarla çıxış edən güc mərkəzlərini regional əməkdaşlığın inkişafına fokuslandırmağı bacaran rəsmi Bakının yürütdüyü siyasət, əlbəttə ki, Cənubi Qafqaz xalqlarının, eləcə də yaxın qonşu ölkə xalqlarının münasibətlərinin gələcəyinə müsbət təsir göstərir. Xüsusilə də son 30 ildə işğalçılıq siyasəti yürütdüyünə görə bütün regional inkişaf layihələrindən kənarda qalmış Ermənistanın yeni reallıqdan faydalanmaq şansı var.

Ölkəmiz regionda nadir geosiyasi mövqeyə malik ölkədir. Baxmayaraq ki, Azərbaycan ərazisinə görə böyük dövlət deyil, suverenliyini tam qoruyub saxlaya bilib. Nəticədə, bu gün Azərbaycan geosiyasi proseslərdə və irimiqyaslı iqtisadi layihələrdə, ilk növbədə, milli maraqlarını nəzərə alaraq iştirak edir, yeni sosial-iqtisadi əməkdaşlıq əlaqələrinin də formalaşmasına təkan verir. Bundan başqa, Azərbaycan əsas geosiyasi oyunçularla bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlı olan ölkədir və bu məsələdə böyük uğurlar da əldə edib.

Heç kimə sirr deyil ki, hazırda Azərbaycan təkcə Qafqaza deyil, həm də Yaxın və Orta Şərq regionuna təsir edən ciddi bir amilə də çevrilib. Belə ki, Azərbaycanın enerji resursları ilə yerləşdiyi regionun zənginliyi və əsas geosiyasi oyunçuların enerji resurslarının dünya bazarına nəql etmək marşrutları üzərində tam nəzarət əldə etmək istəkləri regional mübarizənin çoxkonfiqurasiyalı olduğunu təsdiqləyir. Belə qarışıq geosiyasi və geoiqtisadi reallıqlar fonunda Azərbaycan milli maraqlarını qorumaqla yanaşı, qarşıdurmaya yox, əməkdaşlığa təkan verəcək istənilən addımı dəstəkləməklə və təşviq etməklə fərqlənir.

Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə postmünaqişə dövrünün reallıqları fonunda Azərbaycanın beynəlxalq münasibətlər sistemində güclənən mövqeyinə, ölkəmizin iqtisadi imkanlarının genişlənməsinə, işğaldan azad edilmiş ərazilərimizdə abadlıq-quruculuq işləri ilə bağlı görülən tədbirlərin miqyasına, eyni zamanda, qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərə bir daha işıq saldı. Cari ilin birinci rübünün yekunları bütövlükdə 2022-ci ili də uğurla başa vuracağımıza böyük əsaslar yaradır. Hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil olan iqtisadi inkişafa nəzər salsaq Azərbaycanın ilin birinci rübündə əldə etdiyi sosial-iqtisadi göstəricilərin qənaətbəxş olduğunu görərik. Təbiidir ki, qazanılan bütün bu uğurların kökündə Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının uğurlu inkişaf etdirilməsi dayanır.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**

Bakı Xəbər.- 2022.- 20 aprel.- S.7.